*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 26-31* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.26*

# Əli bəy Hüseynzadə "İttihad və Tərəqqi" Cəmiyyətinin qurucularından biri kimi

**Azər Əbilov (Azər Turan)**
Filologiya üzrə fəlsəfə doktoru
E-mail: a_turan63@mail.ru

**Annotasiya.** Məqalədə "İttihad və Tərəqqi" cəmiyyətinin yaranma tarixindən bəhs olunur. Onun ilk qurucuları və ilk ideoloqları sırasında olan Əli bəy Hüseynzadənin rolu tarixi sənədlər və dəlillər əsasında analizə cəlb edilir. XX əsrin əvvəllərində aparılan çoxyönlü mübahisəli məqamlar, türk birliyi amili, türkçülüklə bağlı Əli bəy Hüseynzadənin yazdığı əsərlər, turançılıq məfkurəsinin inkişafı yönündə göstərdiyi xidmətlər müxtəlif fikir adamlarının əsərləri vasitəsilə ümumiləşdirilir.
**Açar sözlər:** Əli bəy Hüseynzadə, Turan, cəmiyyət, türk birliyi, osmanlı, "İttihad və Tərəqqi", ideoloq

**Məqalə tarixçəsi:** göndərilib –14.05.2024; qəbul edilib – 23.05.2024

# Ali bey Huseynzade as one of the founders of the Society "Union and Progress"

**Azer Abilov (Azer Turan)**
Doctor of Philosophy in Philology
E-mail: a_turan63@mail.ru

**Abstract.** In the article it is dealt with the origin history of the Society of "Union and Progress". The role of Ali bey Huseynzade, one of the first founders and ideologue of this society is analyzed on the basis of historical documents and evidences. At the beginning of the 20th century, controversial points, Turkish unity factor, the works about Turkism written by Ali bey Huseynzade, his merits in the development of the ideology of Turanism are summarized through the works of various thinkers.
**Keywords:** Ali Bey Huseynzade, Turan, society, Turkish unity, Ottoman, "Unity and Progress", ideologue

**Article history:** received – 14.05.2024; accepted − 23.05.2024

## Giriş / *Introduction*

Əli Heydər Bayat "İttihad və Tərəqqi"nin quruluş tarixindən bəhs edərkən "Cəmiyyətin Əli bəyin İstanbula gəlməsindən bir il öncə qurulması"nı xatırladaraq "Bəzi qaynaqlar Hüseynzadə Əli bəyin qurucular arasında olduğunu yazıyorlarsa da doğru deyildir", [3, s.12] – deyə bildirir.

Hüseynzadənin ömürlüyündə çox böyük əhəmiyyət kəsb edən belə bir ciddi məqam haqqında danışarkən səbəbini izah etmədən Bayat

nə üçün birmənalı şəkildə Əli bəyin "İttihad və Tərəqqi"nin təməldaşını qoyan birincilərin sırasında olmadığını iddia edib? Məsələyə aydınlıq gətirilməlidir.

Əli Heydər Bayatdan fərqli olaraq, Kazım Nabi Duru "İttihad və Tərəqqi xatirələrim", tarixçi Ənvər Ziya Karal "Böyük Osmanlı tarixi", Əhməd Bədəvi Kuran "İnqilab tariximiz və Jon türklər", Levis "Modern Türkiyənin qurulması", Tarik Zafər Tunaya "Türkiyədə siyasi partiyalar", Sürəyya Şövkət Aydəmir "Makedoniyadan Orta Asiyaya Ənvər Paşa", Rza Nur "Həyat və xatiratım", Nəcib Fazil Qısakürək "Ulu xaqan"... kitablarında, Hilmi Ziya Ülken isə "Türkçülüyün və türk sosializminin atası Əli Turan" adlı yazısında Əli bəy Hüseynzadənin adını "İttihad və Tərəqqi"nin qurucuları və ilk ideoloqları sırasında çəkirlər.

## Əsas hissə / *Main Part*

Əli Heydər Bayat Əli bəy Hüseynzadənin qurucular sırasında olmadığını onun "İttihad və Tərəqqi" necə quruldu? Ubeydullah əfəndinin oynadığı rollar" məqaləsinə istinad edərək isbatlamaq istəyir. Həmin məqalədə isə Əli bəyin xatırlatdıqları Əliheydər Bayatın "bəzi qaynaqlar Hüseynzadə Əli bəyin qurucular arasında olduğunu yazırlarsa da, doğru deyildir", – deyə qəti hökm çıxarmasına əsas vermir (İndi də Əli Heydər Bayatın bu əsassız iddiasına söykənərək, – "Əli bəy Hüseynzadə "İttihad və Tərəqqi"nin qurucularından olmamışdır" iddiası ilə çıxış edən bir qism Azərbaycanlı müəlliflərin tarixə tarixin hansı köşəsindən baxdığı aydın olmur – **müəllif**). Hüseynzadə İshaq Sükutinin onu Sirkəçidə bir qəhvəxanada Ubeydullah əfəndi ilə ilk dəfə necə görüşdürməsini və aralarında keçən söhbətin məzmunun yazıb:

"Sükuti:

– İştə, dedi, sizə keçənlərdə bəhs etdiyim "rus nihilsti" Əli bəy. İshakın bu təqdimatından, xoşlanmadımsa da, səsimi çıxarmadım.

– O nasıl şey? Həm Əli, həm rus nihilisti?

– Pardon, "türk nihilsti" demək istədim.

– Pah, şöylə.

Bundan sonra bir az ötədən-bəridən bəhs etdik və nəhayət, söz Rusiyadakı ihtilal və hürriyət hərəkatlarına intiqal etdi.

Bən, Peterburq, Moskva, Kazan və s. universitetlərindəki üsyan vaqeələrini anlatdım, bunların nəticəsi olaraq, tələbə arkadaşlardan bir kaç kişinin və bu arada iyi bir kimyagər olan Saşa Ulyanovun (Leninin böyük qardaşıdır) necə yaxalanıb edam olunduğunu hekayə etdim. Bu münasibətlə bir az da universitet tələbələri arasındakı gizli ihtilal təşkilatından, benzinin kimyəvi rəmzi kibi, altışar qrupların ittihadından hasil olan, devrimçi geniş orqanizasyonlardan bəhs etdim...

Bunun üzərinə Ubeydullah Əfəndi İshaq Sükutiyə dönərək dedi ki:

– Əzizim, görüyorsun ya, təşkilatsız heç bir şey olmuyor!..

Bu mulakatdan bir kaç gün sonra, dərsxanəmizdə yalnız bulunduğum bir sırada İshaq Sükuti yanıma soxuldu… Şirvanda bulunan böyük validəmdən cib xərcliyi olaraq bir miqdar para aldığımı nasılsa duymuşdu, dedi ki:

– Cəmiyyətimizə bir az para verəcəksən, səni də əza qeyd etdik!

– Nə cəmiyyəti bu?

–Hanı ya, keçənlərdə, Peterburq tələbəsi arasındakı gizli bir ihtilal təşkilatından bəhs etmişdin! İştə biz də, bir kaç arkadaş, burada "Tərəqqi və İttihad" adı ilə, o yolda bir cəmiyyət təsis etdik...

– Sora bilərmiyəm, kimlər var bu cəmiyyətdə?..

... Cəmiyyətin ilk üzvləri olaraq, isməri xatirimdə qalanların başlıcaları şunlardır: Dr. İbrahim Temo (indi Rumıniyadadır), Diyarbəkirli mərhum Dr. A. Cövdət, mərhum şair Dr. Əhməd Cövdət, göz təbibi Dr. İsmayıl Şükrü (indi Misirdədir), Vaşinqton səfiri B. Münirin amcası Dr. Cəmaləddin (Üsküdarda Sultantəpəsində oturur), Fərid Paşanın məşum dövründə intihar edən, mərhum Dr. Çərkəz M. Rəşid, Berlində şəhid edilən mərhum Prof. Dr. Baha Şakir, Misirdə vəfat edən mərhum Dr. Şərafəddin Mağmuni və bunlar haqqında iyi məlumat sahibi olan Dr. Nəzmi (Əskişəhərlidir)..." [4, s.150]

...Əli Heydər Bayatdan başqa hamı, xüsusən, Hüseynzadənin İstanbul Darülfününunda təhsil aldığı dövrün şahidləri birmənalı şəkildə qeyd edirlər ki, "İttihad və Tərəqqi"nin ilk toplantısı,

cəmiyyətin ilk qığılcımları Əsgəri-Tibbiyədə közərmişdir. Dünyalarca məşhur olan bu cəmiyyət 1889-cu ildə (bəzi qeydlərə görə may ayının 21-də) Əsgəri-Tibbiyənin bağçasında gözdən-könüldən uzaq bir guşədə, hamam və mətbəx üçün odun toplanan yerdə Əli bəy Hüseynzadə, İbrahim Temo, Abdullah Cövdət, İshaq Sükuti, Məhməd Rəşid tərəfindən "İttihadi-Osmani" – (Osmanlı Birliyi Cəmiyyəti) adı ilə qurulmuşdu. Bu toplantı "İnciraltı İctimaı" adı ilə də məşhurdur. Olsun ki, Ubeydullah Əfəndinin başçılığı ilə tələbələr sonradan daha geniş miqyasda bir araya gəliblər və yaradılan təşkilata "İttihad və Tərəqqi" adını veriblər. Bu barədə Əli bəydən başqa heç kəs demək olar ki, bir kəlmə də yazmayıb.

Ubeydullah əfəndi ilə söhbətində Əli bəy Hüseynzadə ona Rusiya şəhərlərindəki tələbə üsyanlarından, geniş təşkilatlanma işlərindən danışır və Ubeydullah əfəndi də dönüb İshaq Sükutiyə deyir ki, əzizim, görürsən... təşkilatsız heç bir şey olmur!..

Bu halda da yenə "İttihad və Tərəqqi" Cəmiyyətinin təşkilatlanması Əli bəyin təlqinlərindən sonra gerçəkləşmirmi?

Əli bəy isə Ubeydullah Əfəndi haqqında 1938-ci ildə yazdığı həmin məqaləsində sadəcə, bunun altını cızmağa ehtiyac duymayıb. Əslində isə, "təvazökar, sakit, mütəfəkkir" (A.Cövdət), "həlim-səlim, yumşaq təbiətli (Ə.Ağaoğlu), "gözə çarpmadan sakit həyat yaşayan" (S.Ş.Aydəmir) Əli bəy Hüseynzadə "Səssiz və göstərişsiz tövrünə rəğmən siyasi və fəlsəfi fikirləri ilə arkadaşlarına təsir etməyə başlamış, onlarla birlikdə "İttihad və Tərəqqi"nin başına keçmiş, fəqət göstərişsiz və gurultusuz mizacı onun heç bir zaman elabaşı, bir lider olmasına imkan verməmişdir" [11, s.7].

Ziya Gökalp isə 1918-ci ilin mayında yazırdı: "Əli bəyin təlqinləriylə, irşadları ilə Tibbiyədəki gənclik pək bir istiqamət aldı… Bu fikri intibah tələbələrə… bir ümid verməşdi. Dərhal Rusiyada gizli təşkilatlara müşabeh bir inqilab cəmiyyətinin təşkilinə başlandı. Tibbiyyənin son sənələrində qurulan bu cəmiyyətin ismi İttihad və Tərəqqi idi. Fəqət bu təbirin başına əlavə ediləcək ilk kəlmə haqqında arada ixtilaf hasil olmuşdu. Keyfiyyətə əhəmiyyət verənlər bunun türk ittihad və tərəqqi olmasını irəli sürüyorlardı. Kəmiyyətə əhəmiyyət verənlər türk kəlməsi yerinə islam kəlməsi qoymağı tərcih ediyorlardı. Avropanın təvəccöhünü qazanmaq kimi siyasi bir əndişəyə qapılanlar isə ilk kəlmənin Osmanlı olmasını müvafiq biliyorlardı. Siyasi bir cəmiyyətdə siyasi əndişənin qələbə çalması təbii olduğu üçün üçüncü təklif qəbul olunmuşdu. İştə məmləkətimizdə təşkil edilən ilk cəmiyyət bu təşkilatdır" [19, s.264].

Gökalp bu fikirləri yazanda "İttihad və Tərəqqi"nin bütün qurucuları həyatdaydı və əksəriyyəti "Yeni Macmua"nın oxucusu olan bu insanların heç biri Ziya Gökalpın məqaləsindəki fikirləri təkzib etməmişdi.

Bu isə Əli bəy Hüseynzadənin "Bioqrafik müxtəsər məlumat"ındandır: "... Bir aralıq Eyyub Səbri, Midhəd Şükrü, mərhum Ziya Gökalp, mərhum hatib Naci və sairə ilə "İttihad və Tərəqqi"nin mərkəzi ümumisi (və İstanbul mərkəzi) əzalığında bulundum – İstanbulda Selanikdə, sonra yenə İstanbulda. Zatən "İttihad və Tərəqqi"nin ilk təşəkkülü zamanından bəri, yəni daha Tibbiyyə tələbəsi ikən, İbrahim Temo, mərhum İshaq Sükuti, mərhum Osman Cövdət, mərhum Abd. Cövdət və sairə ilə bərabər bu məzkur cəmiyyətin azasından biri idim" [9, s.4].

Əliheydər Bayatın bu məqamdakı tələsik yozumu bəzən, təəssüf ki, Azərbaycanda da onun yazdıqlarına istinad edilərək təsbit edilir. Əli bəy Hüseynzadəyə böyük sevgilərlə yazılmış bir əsərdə Sükutinin "Cəmiyyətimizə bir az para verəcəksən, səni də əza qeyd etdik! " sözləri belə təqdim edilir: "Cəmiyyətimizə bir az pul verəcəksənsə, səni də üzv eləyərik" [1, s.25]. Göründüyü kimi, Sükutinin dediyi və Əli bəyin xatırlatdığı ilə ikinci versiyanın arasında çox böyük və ciddi fərq var:

"Bir az para verəcəksən, səni də əza qeyd etdik!" (Əli bəyin yazdığı mətn).

"Cəmiyyətimizə bir az pul verəcəksənsə, səni də üzv eləyərik" (Həmin mətnin azərbaycanlı müəllif tərəfindən təhrif edilmiş şəkli).

"Para verəcəksən" əvəzinə "pul verəcəksənsə", "əza qeyd etdik" əvəzinə "üzv eləyərik" və s.

Sükutinin söylədiklərinin yanlış təqdimatı Azərbaycan ədəbiyyatşünaslığının ciddi probleminə çevrilməkdədir. Başqa bir yazıda fakt belə təqdim olunur: "Ə. Hüseynzadə "İttihad və Tərəqqi" Cəmiyyətinə daxil olması hadisəsini sonralar xatırlayaraq yazır ki, gizli cəmiyyət təşkil etmək üçün nənəsinin o zaman ona Şirvandan

göndərdiyi pulu ittihadçılara kömək məqsədilə verərək, həmin cəmiyyətə üzv olmuşdur" [5, s.25].

Əli bəyin məqaləsindən də göründüyü kimi, məsələnin mahiyyəti fərqliydi. Pul verib, bir Cəmiyyətə üzv olmaqla, o Cəmiyyət barədə ideyanın irəli sürülməsi ayrı-atrı məsələlər deyilmi?

Təşkilatlanmasında Ubeydullah əfəndinin iştirak etdiyi cəmiyyət də, bir az sonra Atatürkün əvvəlcə Suriyada "Vətən və hürriyyət" adıyla, sonra Selanikdə "Osmanlı Hürriyyət Cəmiyyəti" adıyla qurduğu təşkilat da Əli bəy Hüseynzadənin ideyalarının davamı kimi dərk olunmalıdır. İlk qurulan "İttihadi-Osmani"dir ki, Ziya Gökalpın yazdığı kimi, onun da ideya müəllifi Əli bəy Hüseynzadə olmuşdu.

Doktor Rza Nur "Həyat və xatiratım" əsərində yazırdı: "İttihad və Tərəqqi" Cəmiyyəti İshaq Sükuti, Şərafəddin Mağmuni, Arif Bəyzadə, Həsən və Əli Hüseynzadə tərəfindən ilk olaraq... tibbiyədə təşkil edilmişdir" [15, I, s.115].

Ənvər Ziya Karalın "Böyük Osmanlı tarixi"ndən: Osmanlılar arasında bəlirən... dağınıq hürriyyət, fikir və hərəkatlarını, siyasi bir orqan olaraq təmsil etməyə qalxışan "İttihad və Tərəqqi" Cəmiyyəti olmuşdur... Cəmiyyətin qurucularından İbrahim Temoya inanmaq lazım gəlirsə, cəmiyyət 21 may 1889-cu ildə qurulmuşdur... Cəmiyyətin qurucuları Əsgəri Tibb Məktəbi öyrəncilərindən İbrahim Temo (Ohri), Abdullah Cövdət (Harput), Məhməd Rəşid (Qafqaz), Hüseynzadə Əli (Bakı), İshaq Sükutidir (Diyarbəkir). Cəmiyyətin ilk adı "Cəmiyyəti Osmaniyə" – İttihad və Tərəqqi Cəmiyyəti olaraq dəyərləndirilmişdir. Cəmiyyətə ilk girənlər arasında Asaf Dərviş (Paşa), Süleyman Emin (Paşa), İsmayıl Safa bəy, Naci (Paşa) kimi kimsələr olmuşdur" [10, s.513-514].

Əli bəy Hüseynzadəni "dəyərli və aydın bir elm adamı" kimi səciyyələndirən, məşrutiyyətdən sonra onun "İttihad və Tərəqqi"nin rəyasət heyətinin üzvü – (Mərkəzi Ümumi Azası) seçildiyini xatırladan Sürəyya Şövkət Aydəmir "Makedoniyadan Orta Asiyaya Ənvər Paşa" ismli kitabında yazır: "Bu vadidə ilk önəmli qrupun İstanbul Tibbiyyəsində qurulduğunu şübhəgötürməz bir gerçək olaraq təkrarlamalıyıq. Qurucu öyrəncilər belə bilinməkdədir: Makedoniyadan ohrili İbrahim Temo, arabgirli Abdullah Cövdət, diyarbəkirli İshaq Sükuti, qafqazlı Məhməd Rəşid, azərbaycanlı Hüseynzadə Əli…" [17, I, s.164]

Nəcib Fazil Qısakürəyin "Ulu xaqan" kitabından: "II Abdulhamidi düşürməyə qərar verən "İttihad və Tərəqqi"ni... 1889-cu ilin mayıs ayının 21-ci günü makedoniyalı İbrahim Temo, arabgirli Abdullah Cövdət, diyarbəkirli İshaq Sükuti, qafqazlı Məhməd Rəşid və bakılı Hüseynzadə Əli... yaradır. Cəmiyətin ilk ismi "İttihadi-Osmani"... Bu cəmiyyət, bildiyimiz məşhur komitənin ilk çəyirdəyidir" [14, s.246].

Hilmi Ziya Ülken də bu fikirdədir: "Hüseynzadə... "İttihad və Tərəqqi"nin qurucularından və ən əski üzvlərindən biri idi" [11, s.9].

David Kuşner "Türk milliyyətçiliyinin doğuşu" kitabında Əli bəy Hüseynzadə "Jon Türklər hərəkatının çəgirdəyini oluşduran "İttihat və Tərəqqi" cəmiyyətinin quruluşunda rol oynamışdı", [7, s.19] – deyə bildirir.

"Hüseynzadə Əli bəyi məmləkətimizdəki… ilk siyasi cəmiyyətin də müsebbihi olaraq buluyoruz" [2, s.133]. (A.Uca).

"İttihad və Tərəqqi" Cəmiyyəti, ilk öncə ittihadi-Osmani (Osmanlı Birliyi) adıyla haziran 1889 tarixində qurulmuş, Sirkəçidəki Əsgəri-Tibbiyyədə təməlləri atılmışdı… Qurucuları isə bakılı Hüseynzadə Əli, qafqazlı Məhməd Rəşad, ohrili İbrahim Temo, ərəbgirli Abdullah Cövdət, diyarbəkirli İshaq Sükuti idi" [12, s.176] (M. Görüryılmaz).

"Böyük Lorousse" ensiklopediyası: "Turan Hüseynzadə Əli. Abdulhamid II dönəmində İttihad və Tərəqqi qurucuları sırasında yer aldı" [6, s.23].

"Osmanlı Ansiklopedisi": "1889 da Askeri Tibbiyedə İshaq Sükuti, Məhmət Rəşid, Abdullah Cövdət, İbrahim Temo və Hüseynzadə Əli tərəfindən oluşdurulan çəkirdək kadro, dövlətin içinə düşdüyü kötü durumun tək sorumlusu olaraq II Abdulhamidi görürdülər" [16, s.8; s.80].

Varşava Universitetinin professoru Tadeuş Svyataxovski: "Hüseynzadə, İstanbuldakı fəaliyyətini rejim əleyhdarlığına yönəltdi və gizli bir müxalifət qrupu olan və daha sonra da Jon Türk hərəkatına təməl təşkil edəcək "İttihadi-Osmaniyyə"nin qurucularından biri oldu. Bu çevrədə dahi pantürkizm konusunda dəstək bulamadı. Abdulhəmidin müxalifləri hələ də osmanlıçılığa bağlıydılar" [18, s.52].

"İttihad və Tərəqqi"nin Əli bəy Hüseynzadənin İstanbula gəlməsindən bir il öncə qurulması isə əsassız qənaətdir. Cəmiyyət 1889-cu ilin mayında qurulmuşdur. Hüseynzadə isə 1889-cu ilin mayında artıq İstanbuldaydı.

Qeyd: Bilgi Universitetində qarşılaşdırmalı ədəbiyyat bölümünün başqanı, professor Murad Belge "İttihad və Tərəqqi"dən bəhs edən bir müsahibəsində, "1900-cu illərin başlarında Məktəbi-Tibbiyədə beş kişi bir araya gəlib gizli İttihad və Tərəqqi Cəmiyyətini qurdular... Beşincisi heç bir iz buraxmadan bir neçə ay sonra ölüb gedən Hüseynzadə Əli bəy, içlərindəki tək türk" [13] idi, – deyə bildirir.

## Nəticə / *Conclusion*

Professor Murad Belge kaş biləydi ki, barəsində söhbət açdığı "İttihad və Tərəqqi" 1900-cu illərin başlarında deyil, 1889-cu ilin ortalarında qurulmuşdur. Kaş Murad Belge onu da biləydi ki, onun təbirincə, 1900-cu illərin başlarında "ölüb gedən" Əli bəy Hüseynzadə 1926-cı ildə İstanbul Universitetinin professoru idi və qarşılaşdırmalı ədəbiyyat bölümünün başqanı Murad Belgenin indi gördüyü elmi işlərin əsasını qoyur, qarşılaşdırmalı ədəbiyyat problemləri barədə əsərlər yazırdı. İngilis ədəbiyyatı üzrə professor Murad Bəlgə Miltonun "İtirilmiş Cənnət"ini ingiliscədən türkcəyə çevirən Hüseynzadəni gərək tanıyaydı...

## Ədəbiyyat / *References*


1. Abdin, T. "Ah İstanbul... İstanbul". – Bakı: "Avropa" nəşriyyatı, 2005.
2. Alaattin, U. İttihad ve Terakki Liderlerinden Doktor Baheddin Şakir Bey. T.C. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı. Doktora tezi. – Erzurum, 2009.
3. Bayat, A.H. "Huseynzade Ali bey". – Ankara: Atatürk Kültür Merkezi Başkanlığı, 1998.
4. Bayat, A.H. "Huseynzade Ali Turan ve Türkiyede yayınladığı eserleri". – İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1992.
5. Bayramlı, O. "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" kitabına müqəddimə. – Bakı: Azərnəşr, – 1996.
6. "Böyük Lorousse". "Milliyet".
7. David, K. Türk milliyetçiliğinin doğuşu (1876-1908). Tercüme Zeki 8 Doğan. – İstanbul: Fener Yayınları, 1998.
9. Əli bəy Hüseynzadə. "Ebedi güzellikler" dəftəri. Əlyazma. "Bioqrafik muhteser malumat".
10. Enver Ziya, K. "Büyük Osmanlı Tarihi". C: 4. Atatürk Kültür, Dil ve Tarih Kurumu Yayınları.
11. Hilmi Ziya, Ü. "Türkçülügün və türk sosializminin babası Ali Turan". "Yeni İnsan". Aralık, 1969, sayı: 84.
12. Mustafa, G. "Türkiyədə Anayasa Hüququnun gəlişimi". – Ankara: "Işık", 2007.
13. Murat, B. Nabukednazar: İttihat-i-Terakki ve Ermeni Kıyımı. Nabukednazar. blogspot. com
14. Necib Fazıl, K. "Ulu hakan". – İstanbul: Büyük Doğu yayınları, 2003.
15. Nur, R. "Hayat ve Hatıratım", 3 cilddə, I cild. "Rıza Nur kendini anlatıyor". – İstanbul: "İşaret" yayınları, 1992.
16. "Osmanlı Ansiklopedisi". C: 8. Tarih. Medeniyet. Kültür. – İstanbul: Ağac Yayınçılık Ltd. Şti., 1994.
17. Şevket Süreyya, A. "Makedoniydan Ortaasyaya Ənvər Paşa". "Remzi" kitabevi, I c., 2000.
18. Tadeusz, S. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı. 1905-1920. İstanbul, 1988
19. Ziya, G. Türkçülük nasıl doğdu? Yeni Macmua, sayı. 140. 18 nisan 1918.

## Али-бек Гусейнзаде один из основателей общества «Единство и прогресс»

**Азер Абилов (Азер Туран)**
Доктор философии по филологии
E-mail: a_turan63@mail.ru

**Резюме.** В статье говорится об истории создания общества «Единство и прогресс». На основании исторических документов и доказательств исследована роль Али-беком Гусейнзаде как одного из основателей и первых идеологов данного общества. Его заслуги в деле развития идеологии туранства в написанных Али-беком Гусейнзаде произведениях о ведущихся в начале XX века разных спорных явлениях, турецком факторе тюркского единения обобщены путём рассмотрения произведений разных мыслителей.
**Ключевые слова:** Али-бей Гусейнзаде, Туран, общество, турецкое единство, Османская империя, «Единство и прогресс», идеолог